AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN TEXNOLOGİYA UNİVERSİTETİ

MİNURƏ HACI qızı KƏRİMOVA
FAZİL CƏMİL oğlu KƏRİMOV

MÜHASİBAT UÇOTU

(Rəqəmsal iqtisadiyyat şəraitində)

DƏRSLİK

Ali təhsil müəssisələrinin iqtisadi ixtisasları üzrə
bakalavr və magistr pilləsi üçün

Azərbaycan Texnologiya Universitetinin Elmi Şurasının 25.02.2026–cı il tarixli 08 saylı protokolu ilə təsdiq edilmişdir.

GƏNCƏ – 2026

Elmi redaktor: Azərbaycan Texnologiya Universitetinin "İdarəetmə" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor
Fizuli Əziz oğlu Məmmədov

Rəyçilər: Azərbaycan Dövlət Aqrar Universitetinin "Maliyyə və mühasibat uçotu" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor
Məhərrəm Cəlal oğlu Hüseynov

Azərbaycan Texnologiya Universitetinin "İqtisadiyyat" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor
Natiq Əli oğlu Cavadov

Kapital Bank ASC, Gəncə filialının müdiri
Vüqar Yavər oğlu Paşayev

Minurə Hacı qızı Kərimova, Fazil Cəmil oğlu Kərimov.
Mühasibat uçotu. Dərslik. – Gəncə, 2026. – 516 səh.

Bu dərslik mühasibat uçotunun nəzəri əsaslarını, metodoloji prinsiplərini və praktiki tətbiq mexanizmlərini sistemli şəkildə əhatə edir. Vəsaitdə mühasibat uçotunun mahiyyəti, funksiyaları, hesablar sistemi, ikili yazılış prinsipi, aktiv və öhdəliklərin uçotu, maliyyə nəticələrinin formalaşması, vergi və maliyyə hesabatlarının tərtibi geniş izah olunur.

Dərslik ali təhsil müəssisələrinin iqtisadiyyat, maliyyə, mühasibat uçotu, audit və turizm ixtisasları üzrə bakalavr və magistr pilləsində təhsil alan tələbələr, eləcə də praktik mühasiblər və maliyyə mütəxəssisləri üçün nəzərdə tutulmuşdur.

© M.H.Kərimova, F.C.Kərimov, 2026
© Azərbaycan Texnologiya Universiteti, 2026

M Ü N D Ə R İ C A T

ÖN SÖZ **6**
GİRİŞ **8**
I BÖLMƏ. ƏSAS ANLAYIŞLAR VƏ PRİNSİPLƏR 10
FƏSİL 1. MÜHASİBAT UÇOTUNUN MAHİYYƏTİ VƏ İQTİSADİYYATDA ROLU 10
1.1. Mühasibat uçotunun anlayışı 10
1.2. Mühasibat uçotunun funksiyaları 13
1.3. Mühasibat uçotunun təsnifatı 16
1.4. Azərbaycan və beynəlxalq mühasibat uçotunun inkişaf mərhələləri 18
TAPŞIRIQLAR **22**
TEST SUALLARI **24**
ƏDƏBİYYAT **27**
FƏSİL 2. MÜHASİBAT UÇOTUNUN PRİNSİPLƏRİ VƏ BEYNƏLXALQ STANDARTLAR **28**
2.1. Mühasibat uçotu prinsipləri 28
2.2. BMHS (IFRS) sisteminin əsasları 36
2.3. Mühasibat uçotunun ilkin sənədləri və qeydiyyat sistemi 42
TAPŞIRIQLAR **50**
TEST SUALLARI **50**
ƏDƏBİYYAT **53**
II BÖLMƏ. UÇOTUN METODOLOJİK ƏSASLARI **54**
FƏSİL 3. MÜHASİBAT UÇOTU HESABLARI VƏ İKİLİ YAZILIŞ SİSTEMİ **54**
3.1. Mühasibat hesablarının mahiyyəti və təsnifatı 54
3.2. Debet və kredit anlayışları 63
3.3. Çevrim cədvəli 73
TAPŞIRIQLAR **82**
TEST SUALLARI **83**
ƏDƏBİYYAT **86**
FƏSİL 4. İLKİN SƏNƏDLƏR VƏ MÜHASİBAT İNFORMASİYA SİSTEMİ **87**
4.1. Sənədlərin rekvizitləri 87
4.2. Elektron sənəd dövriyyəsi 96
4.3. Mühasibat uçotunda ERP sistemləri (1C, SAP, PARLAMENT və s.) 105
TAPŞIRIQLAR **115**
TEST SUALLARI **116**
ƏDƏBİYYAT **119**
III BÖLMƏ. AKTİVLƏRİN MÜHASİBATI **120**
FƏSİL 5. KASSA VƏ BANK ƏMƏLİYYATLARI **120**

5.1. Kassa əməliyyatları 120
5.2. Bank hesabları üzrə əməliyyatlar 127
5.3. Bank–kassa uzlaşması və pul axınlarının idarə olunması 137
TAPŞIRIQLAR 145
TEST SUALLARI 146
ƏDƏBİYYAT 149
FƏSİL 6. DEBİTOR VƏ KREDİTOR BORCLARI 150
6.1. Alıcı və satıcılarla hesablaşmalar 150
6.2. Debitor borcları: qiymətləndirmə və ehtiyatlar 159
6.3. Kreditor borclarının uçotu 169
TAPŞIRIQLAR 180
TEST SUALLARI 181
ƏDƏBİYYAT 184
FƏSİL 7. EHTİYATLARIN UÇOTU 185
7.1. Material ehtiyatları və onların qəbulu 185
7.2. Malların uçotu və qiymətləndirilməsi 194
7.3. FIFO, LIFO, Orta Çəki metodları (müqayisəli təhlil və tətbiq qaydaları) 203
TAPŞIRIQLAR 213
TEST SUALLARI 214
ƏDƏBİYYAT 217
FƏSİL 8. ƏSAS VƏSAİTLƏR VƏ AMORTİZASİYA 218
8.1. Əsas vəsaitlərin mahiyyəti və təsnifatı 218
8.2. Amortizasiya metodları 226
8.3. Əsas vəsaitlərin yenidənqiymətləndirilməsi,təmir və silinməsi 235
TAPŞIRIQLAR 244
TEST SUALLARI 245
ƏDƏBİYYAT 248
FƏSİL 9. QEYRİ-MADDİ AKTİVLƏR 249
9.1. Qeyri-maddi aktivlərin növləri 249
9.2. Qeyri-maddi aktivlərin qiymətləndirilməsi 258
9.3. Qeyri-maddi aktivlərin amortizasiyası 266
TAPŞIRIQLAR 271
TEST SUALLARI 272
ƏDƏBİYYAT 275
IV BÖLMƏ. XƏRCLƏR VƏ MƏNFƏƏT 276
FƏSİL 10. ƏMƏK HAQQI VƏ SOSİAL AYIRMALAR 276
10.1. Əmək haqqının formaları 276
10.2. Sosial ayırmalar 284
10.3. Əmək haqqının hesablanması və uçotu 301
TAPŞIRIQLAR 321
TEST SUALLARI 323
ƏDƏBİYYAT 326

FƏSİL 11. MƏHSULUN MAYA DƏYƏRİ 327
11.1. Xərclərin təsnifatı 327
11.2. Maya dəyərinin kalkulyasiya üsulları 338
11.3. Mənfəət və zərərin hesablanması 346
TAPŞIRIQLAR.....353
TEST SUALLARI.....354
ƏDƏBİYYAT 357
V BÖLMƏ. VERGİLƏR VƏ MALİYYƏ HESABATLARI.....358
FƏSİL 12. VERGİLƏR VƏ BÜDCƏ QARŞISINDA ÖHDƏLİKLƏR..... 358
12.1. Vergi sisteminin növləri və funksiyaları 358
12.2. ƏDV, mənfəət və gəlir vergisi 379
12.3. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət.....389
TAPŞIRIQLAR.....396
TEST SUALLARI.....396
ƏDƏBİYYAT 399
FƏSİL 13. KAPİTAL VƏ MALİYYƏ NƏTİCƏLƏRİNİN UÇOTU ..400
13.1. Kapitalın təsnifatı 400
13.2. Dividendlərin uçotu.....412
13.3. Mənfəətin bölüşdürülməsi.....417
TAPŞIRIQLAR.....428
TEST SUALLARI.....429
ƏDƏBİYYAT 432
FƏSİL 14. MALİYYƏ HESABATLARI 433
14.1. Balans hesabatı 433
14.2. Mənfəət və zərər hesabatı.....442
14.3. Pul vəsaitlərinin hərəkəti hesabatı.....450
14.4. Kapitalda dəyişikliklər hesabatı 459
14.5. Maliyyə göstəricilərinin təhlili 467
TAPŞIRIQLAR.....476
TEST SUALLARI.....477
ƏDƏBİYYAT 481
VI BÖLMƏ. MÜASİR TENDENSİYALAR VƏ AVTOMATLAŞDIRMA 482
FƏSİL 15. MÜHASİBAT UÇOTUNDA RƏQƏMSALLAŞMA VƏ YENİ TRENDLƏR 482
15.1. Rəqəmsallaşmanın mahiyyəti.....482
15.2. Süni intellekt və avtomatlaşdırma 489
15.3. Blokçeyn və e-auditor sistemləri.....494
15.4. Məlumat təhlükəsizliyi 499
TAPŞIRIQLAR.....508
TEST SUALLARI.....508
ƏDƏBİYYAT 511
TEST TAPŞIRIQLARININ CAVABLARI.....512

ÖN SÖZ

XXI əsrdə qlobal iqtisadiyyatın rəqəmsallaşması bütün iqtisadi münasibətlərin mahiyyətinə ciddi təsir göstərdiyi kimi, mühasibat uçotunun da nəzəri-metodoloji əsaslarının və praktiki tətbiq mexanizmlərinin yenidən formalaşmasını zəruri etmişdir. Rəqəmsal iqtisadiyyat şəraitində informasiya axınlarının sürətlənməsi, maliyyə əməliyyatlarının mürəkkəbləşməsi və idarəetmə qərarlarının operativliyinə olan tələblərin artması mühasibat uçotunun rolunu yalnız qeydiyyat funksiyası ilə məhdudlaşdırmır, onu strateji idarəetmə və analitik qərarların əsas informasiya mənbəyinə çevirir.

Müasir mərhələdə mühasibat uçotu rəqəmsal platformalar, avtomatlaşdırılmış informasiya sistemləri, bulud texnologiyaları, böyük verilənlər (Big Data), süni intellekt və maşın öyrənməsi elementləri əsasında inkişaf edir. Bu texnologiyalar uçot məlumatlarının toplanması, emalı, saxlanması və təqdim edilməsində yeni imkanlar yaratmaqla yanaşı, uçotun şəffaflığını, dəqiqliyini və operativliyini əhəmiyyətli dərəcədə artırır. Nəticədə mühasib peşəsi də transformasiyaya uğrayaraq klassik icraçı funksiyadan analitik, məsləhətçi və strateji tərəfdaş funksiyasına doğru inkişaf edir.

Təqdim olunan dərslik mühasibat uçotunun klassik elmi-nəzəri əsaslarını qorumaqla yanaşı, onun rəqəmsal mühitdə inkişaf istiqamətlərini, müasir informasiya texnologiyalarının uçot prosesinə inteqrasiyasını və rəqəmsal hesabatlılıq mexanizmlərini sistemli şəkildə əhatə etmək məqsədi ilə hazırlanmışdır. Dərslikdə mühasibat uçotunun predmeti və metodu, hesablar sistemi, ikili yazılış prinsipi kimi fundamental məsələlər rəqəmsal mühitin tələbləri prizmasından yenidən şərh edilmişdir.

Eyni zamanda, dərslikdə ilkin sənədlərin elektronlaşdırılması, elektron sənəd dövriyyəsi, rəqəmsal inventarlaşma, avtomatlaşdırılmış mühasibat uçotu sistemləri, ERP proqramları, inteqrasiya olunmuş informasiya platformaları və real vaxt rejimində məlumatların emalı kimi aktual mövzular geniş şəkildə izah olunmuşdur. Bu yanaşma tələbələrə və praktik mütəxəssislərə uçot proseslərinin müasir texnoloji mühitdə necə təşkil edildiyini dərindən anlamağa imkan verir.

Dərslikdə xüsusi diqqət beynəlxalq maliyyə hesabatı standartlarının (IFRS) rəqəmsal mühitdə tətbiq xüsusiyyətlərinə yönəldilmişdir. Maliyyə hesabatlarının elektron formatda hazırlanması, XBRL texnologiyası, maliyyə məlumatlarının şəffaflığının və etibarlılığının artırılması, habelə beynəlxalq informasiya mübadiləsinin təmin edilməsi məsələləri müasir elmi yanaşmalar əsasında təhlil edilmişdir. Bununla yanaşı, risklərin idarə olunmasında mühasibat uçotunun rolu, daxili nəzarət sistemlərinin rəqəmsallaşması, kiber risklər, məlumat təhlükəsizliyi və auditlə qarşılıqlı əlaqə məsələləri ayrıca bölmələrdə ətraflı şəkildə araşdırılmışdır.

Dərslik ali təhsil müəssisələrinin iqtisadiyyat, maliyyə, mühasibat uçotu və audit ixtisasları üzrə bakalavr və magistr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Bununla yanaşı, rəqəmsal uçot sistemlərinə keçid edən müəssisələrin mühasibləri, maliyyə menecerləri, auditorlar və bu sahədə biliklərini müasir çağırışlara uyğun yeniləmək istəyən praktik mütəxəssislər üçün də dəyərli elmi-metodik vəsait kimi istifadə oluna bilər.

Ümid edilir ki, təqdim olunan dərslik mühasibat uçotunun rəqəmsal transformasiya prosesinin elmi əsaslarla dərk edilməsinə, müasir mühasibat uçotu mütəxəssislərinin hazırlanmasına və ölkəmizdə rəqəmsal maliyyə mühitinin inkişafına mühüm töhfə verəcəkdir.

Yusif Əbülfət oğlu Hümbətov,
iqtisad elmləri doktoru, professor əvəzi

G İ R İ Ş

Müasir dövrdə iqtisadi sistemlərin dinamik inkişafı, informasiya texnologiyalarının bütün sahələrə nüfuz etməsi və qlobal rəqabətin güclənməsi təsərrüfat subyektlərinin daha çevik, daha analitik düşüncə tərzinə əsaslanan idarəetmə mexanizmlərini tətbiq etməsini zəruri etmişdir. Bu proseslərin mərkəzində isə etibarlı məlumatın formalaşdırılması dayanır ki, həmin məlumatların əldə edilməsində mühasibat uçotunun rolu əvəzsizdir. Mühasibat uçotu iqtisadi fəaliyyətin bütün mərhələlərini sistemləşdirən, təsərrüfat əməliyyatlarını ardıcıllıqla əks etdirən və idarəetmə qərarlarının qəbulunda əsas baza kimi çıxış edən elmi və praktiki məfhumdur.

Mühasibat uçotu yalnız rəqəmlərin qeydiyyatı deyil, məlumatların emalı, təhlili, qruplaşdırılması və istifadəçilərə təqdim olunması ilə xarakterizə olunan çoxşaxəli informasiya sistemidir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, mühasibat uçotu düzgün qurulmadıqda nə müəssisənin real vəziyyəti müəyyən oluna bilir, nə maliyyə axınları effektiv idarə olunur, nə də strateji qərarlar etibarlı əsaslarla qəbul edilir. Buna görə də mühasibat uçotunun düzgün təşkili, ölkənin qanunvericiliyi ilə tam uyğunluğu və beynəlxalq standartlarla harmonizasiyası hər bir təsərrüfat subyekti üçün prioritet məsələlərdən biridir.

Qlobal iqtisadi inteqrasiya və beynəlxalq ticarətin genişlənməsi şəraitində Azərbaycan Respublikasında da mühasibat uçotu sistemi yeni mərhələyə qədəm qoymuşdur. Xüsusən də, "Mühasibat uçotu haqqında" Qanunun tətbiqi, BMHS (IFRS) standartlarının genişləndirilməsi və elektron mühasibat sistemlərinin inkişafı müəssisələrin hesabatlılığını daha şəffaf və etibarlı etmişdir. Dövlət səviyyəsində aparılan rəqəmsallaşma siyasəti, xüsusilə elektron hökumət portalının genişləndirilməsi və e-hesabat sistemlərinin icrası mühasibat uçotunun funksional imkanlarını daha da artırmışdır.

Eyni zamanda yeni texnologiyaların – süni intellektin, Big Data-nın, bulud texnologiyalarının və blokçeyn sistemlərinin mühasibat uçotuna inteqrasiyası uçotun yalnız keçmişi əks etdirən deyil, həm də gələcəyi proqnozlaşdıran analitik alətə çevrilməsinə imkan yaratmışdır. Müasir mühasibat uçotu artıq təkcə qeydiyyat və hesabatlıq funksiyaları daşımır, o, idarəetmənin ayrılmaz hissəsinə çevrilmiş strateji informasiya sistemidir.

Hazırlanan bu dərslik mühasibat uçotunun nəzəri əsaslarını, tətbiq sahələrini və inkişaf meyillərini elmi-metodoloji ardıcıllıqla təqdim edir. Dərslikdə mühasibat uçotuna dair anlayışlar sistemli şəkildə izah edilir, uçotun prinsipləri, standartları, hesablar sistemi, ilkin sənədləşmə qaydaları, ikiqat yazılış metodu, çevrim cədvəlləri, maliyyə hesabatlarının tərtibi kimi mövzular geniş təhlil edilir. Hər fəsildə nəzəri biliklərlə yanaşı real təsərrüfat əməliyyatları üzrə nümunələr, müasir müəssisələrdə tətbiq olunan uçot modelləri, beynəlxalq təcrübədən nümunələr təqdim olunur.

Dərsliyin mühüm məqsədi tələbələrdə və mütəxəssislərdə mühasibat uçotunun mahiyyətini dərindən anlamaq, real biznes proseslərini analiz etmək və idarə-

etmə qərarları üçün lazımi maliyyə məlumatlarını hazırlamaq bacarığını formalaşdırmaqdır. Bu məqsədlə dərslikdə konseptual yanaşmalarla yanaşı, praktiki tapşırıqlar, test sualları və müxtəlif uçot situasiyaları əlavə edilmişdir ki, bu da biliklərin möhkəmləndirilməsinə xidmət edir.

Mühasibat uçotu sahəsinin ən mühüm xüsusiyyətlərindən biri onun fasiləsiz dəyişməsidir. Qanunvericilikdə baş verən yeniliklər, iqtisadi münasibətlərin dəyişməsi, bazar strukturunun təkmilləşməsi və texnoloji yeniliklər uçot sisteminin daim yenilənməsini tələb edir. Bu səbəbdən dərslikdə yalnız klassik anlayışlar deyil, həm də müasir dövrün tələblərinə cavab verən yeni uçot yanaşmaları öz əksini tapmışdır.

Dərsliyin üstünlüklərindən biri metodoloji ardıcıllığın yüksək səviyyədə qorunmasıdır. Oxucu əvvəlcə uçotun mahiyyətini öyrənir, daha sonra onun prinsipləri, kateqoriyaları və təsnifatı ilə tanış olur, növbəti mərhələdə isə əməli uçot sahələri üzrə geniş məlumat əldə edir. Bu ardıcıllıq biliklərin mərhələli şəkildə mənimsənilməsinə və praktiki fəaliyyətə rahat tətbiqinə imkan yaradır.

Bundan əlavə, dərslikdə mühasibat uçotunun iqtisadiyyatın digər sahələri ilə – audit, vergi sistemi, idarəetmə uçotu, maliyyə analizi və korporativ idarəetmə ilə qarşılıqlı əlaqələri geniş şəkildə izah olunur. Xüsusilə vergi uçotu ilə maliyyə uçotu arasında olan fərqlər, müəssisə fəaliyyətinin maliyyə nəticələrinə təsir edən amillər və kapitalın formalaşma mexanizmləri elmi-nəzəri məzmun əsasında təhlil edilmişdir.

Rəqəmsallaşmanın yaratdığı yeni uçot imkanları – elektron sənəd dövriyyəsi, ERP sistemləri, onlayn ödəniş mexanizmləri, elektron bankçılıq və digər texnologiyalar da dərslikdə ayrıca bölmələr şəklində işlənmişdir. Rəqəmsal uçot sistemləri yalnız əməliyyatların daha sürətli və dəqiq qeydiyyatını təmin etmir, həm də insan amili ilə bağlı səhvlərin minimuma enməsinə şərait yaradır. Bu isə müəssisələrin daha sabit maliyyə siyasəti qurmasına imkan verir.

Dərslik həmçinin beynəlxalq təcrübəyə əsaslanan müqayisəli təhlilləri özündə cəmləşdirir. Bu yanaşma oxuculara müasir iqtisadi proseslərin qlobal miqyasda necə formalaşdığını və uçot sistemlərinin müxtəlif ölkələrdə necə tətbiq olunduğunu daha yaxşı anlamağa imkan verir. Mühasibat uçotu yalnız milli çərçivədə deyil, eyni zamanda beynəlxalq səviyyədə iqtisadi münasibətlərin vacib tərkib hissəsidir.

Nəticə etibarilə, bu dərslik tələbələrə, gənc mühasiblərə, eləcə də iqtisadiyyat sahəsində çalışan digər mütəxəssislərə mühasibat uçotu haqqında geniş, sistemli və akademik məlumat təqdim etməyi hədəfləyir. Mətnin orijinallığı, elmi əsaslandırılması, terminlərin dəqiqliyi və praktiki nümunələrlə zənginləşdirilməsi dərsliyə qrif almaq üçün tələb olunan bütün meyarlara cavab verir.

Bu vəsait gələcək mühasiblərin peşəkar bilik və bacarıqlarını inkişaf etdirmək, onları əmək bazarının tələblərinə uyğun hazırlamaq və müasir iqtisadiyyatın çağırışlarına cavab verən kadrlar yetişdirmək məqsədi daşıyır.

I BÖLMƏ. ƏSAS ANLAYIŞLAR VƏ PRİNSİPLƏR

FƏSİL 1. MÜHASİBAT UÇOTUNUN MAHİYYƏTİ VƏ İQTİSADİYYATDA ROLU


1.1. Mühasibat uçotunun anlayışı

Mühasibat uçotu — müəssisənin təsərrüfat fəaliyyətini əks etdirən bütün əməliyyatların əvvəlcədən müəyyən olunmuş prinsiplər və qaydalar əsasında sənədləşdirilməsi, sistemləşdirilməsi, ölçülməsi və yekun maliyyə hesabatlarında təqdim edilməsi prosesidir. Bu anlayış özündə həm informasiya sistemini, həm qeydiyyat mexanizmini, həm də analitik təhlil vasitəsini birləşdirir. Mühasibat uçotu təsərrüfat proseslərini ardıcıl şəkildə izləməyə və nəticədə müəssisənin maliyyə vəziyyəti haqqında obyektiv məlumat əldə etməyə imkan verir.

Mühasibat uçotu – müəssisələr və korporasiyalar kimi iqtisadi qurumlar haqqında maliyyə və qeyri-maliyyə məlumatlarının ölçülməsi, işlənməsi və ötürülməsi.

"Mühasib" sözü ərəb sözü olub hesabat aparan,hazırlayan şəxs mənasını verir.

Mühasibat uçotu – idarətmənin maliyyə hərəkətlərini qeyd edən, siniflən-dirən, xüsusiləşdirən və hesabata çevirən bir elmdir.



Bu gün mühasibat uçotu müəssisənin elə bir sahəsidir ki, bu sahədən müəssisə gəlir də əldə edə bilər, zərər də.

İdarə heyətinin vaxtında və düzgün idarəetmə uçotunun məlumatları ilə təmin etməsindən, onların müəssisənin fəaliyyəti ilə bağlı effektiv qərarların qəbul edilməsi asılıdır.

Maliyyə hesabatlarında təqdim olunan müəssisənin maliyyə vəziyyətindən investorların, kreditorların, müştərilərin qərarları asılıdır.

Beləliklə, **idarəetmə, maliyyə və vergi uçotu** sistemlərinin effektiv qurulması son dərəcə vacibdir.

Mühasibat uçotuna biznesin və iqtisadiyyatın dili deyirlər. Bu dil ilə müəssisə-

lərin hazırkı vəziyyətini, onların gələcəyi haqqında proqnozları öyrənmək olar.

Mühasibat uçotu məlumatları ilə maraqlanan tərəflər mühasibat uçotu məlumatlarının istifadəçiləri adlanır. Mühasibat uçotu məlumatlarının istifadəçiləri **2 qrupa** bölünür:

- daxili istifadəçilər (insiders);
- kənar istifadəçilər (outsiders).

Daxili istifadəçiləri – Müəssisə daxilində biznes qərarlarını qəbul etmə səlahiyyətinə malik olan rəhbər, menecer, yaxud sadə işçilər ola bilər.

Kənar istidafəçilər — Kənardan həmin şirkətin maliyyə uçotu məlumatları ilə maraqlanan tərəflər ola bilər.Bu istifadəçilərə investorlar və səhmdarlar, kreditorlar, dövlət vergi orqanları,yaxud istehlakçılara aiddir.

Göstərilən istifadəçilər maliyyə uçotundan aşağıdakı informasiyaları almaqda maraqlıdırlar:

1. İnvestorlar və səhmdarlar,onların nümayəndələri — həyata keçirilən və ya nəzərdə tutulan investisiyaların riskliyi, gəlirliyi və müəssisənin dividend ödəmək qabiliyyəti haqda informasiya;

2. Müəssisənin işçiləri və onların nümayəndələri (həmkarlar ittifaqı və s.) — işverənlərin gəlirliliyi,stabilliyi,iş yerlərini saxlamaq və əmək haqqı ödəyə bilmə imkanı barədə informasiya;

3. Borcverənlər — müəssisənin verilmiş borcları qaytara bilməsi və faizləri ödəyə bilməsi haqqında informasiya;

4. Malsatan və podratçılar,malalan və sifarişçilər — müəssisənin fəaliyyətinin fasiləsizliyi haqqında informasiya;

5. Dövlət orqanları — öz funksiyalarını (resursların yerləşdirilməsi, iqtisadiyyatın tənzimlənməsi, dövlət siyasətinin hazırlanması və reallaşdırılması,statistik nəzarətin aparılması və s. funksiyalar) həyata keçirmək üçün onlara lazım olan informasiya;

6. Bütövlükdə ictimaiyyət — yerli, regional və dövlət səviyyəsində müəssisənin ictimai rifahını yüksəldilməsində rolu haqqında informasiya.

Mühasibat uçotunun mahiyyəti. Mühasibat uçotu iqtisadi informasiya sisteminin əsas hissəsidir və məqsədi müəssisənin maliyyə vəziyyəti, fəaliyyət nəticələri və pul vəsaitlərinin hərəkəti barədə etibarlı məlumatlar yaratmaqdır. Bu məlumatlar yalnız daxili idarəetmə qərarları üçün deyil, eləcə də xarici istifadəçilər – investorlar, kreditorlar, dövlət qurumları və digər maraqlı tərəflər üçün də zəruridir.

Müəssisədə baş verən hər bir iqtisadi əməliyyat — materialların qəbulu, məhsul istehsalı, satış, əməkhaqqının ödənilməsi, aktivlərin alınması və sair — mühasibat uçotu vasitəsilə ölçülür və rəsmiləşdirilir. Bu səbəbdən mühasibat uçotu müəssisənin "daxili dili", "maliyyə yaddaşı" kimi səciyyələndirilir.

Mühasibat uçotunun əsas komponentləri

1. Sənədləşdirmə – Hər bir təsərrüfat əməliyyatı ilkin sənədlər əsasında rəsmiləşdirilməlidir. Sənədlər əməliyyatların hüquqi əsasını və faktiki baş verdiyini təsdiq edir.

2. Qiymətləndirmə – Aktivlərin, öhdəliklərin, xərclərin və gəlirlərin müəyyən olunmuş uçot prinsiplərinə uyğun olaraq pul ifadəsində ölçülməsidir.

3. Qruplaşdırma və sistemləşdirmə – Bütün əməliyyatlar xüsusi hesablar üzrə qruplaşdırılır və ikili yazılış üsulu ilə uçota alınır.

4. Ümümiləşdirmə – Hesabat dövrünün sonunda toplanmış məlumatlar maliyyə hesabatlarında ümumiləşdirilir.

Mühasibat uçotunun əsas məqsədi təsərrüfat fəaliyyətinin nəticələrini dəqiq və şəffaf şəkildə əks etdirməkdir. Bununla yanaşı, uçotun bir sıra konkret məqsədləri də mövcuddur:

- Müəssisənin maliyyə vəziyyəti haqqında etibarlı məlumat təmin etmək
- Aktivlər və öhdəliklər üzərində nəzarəti həyata keçirmək
- Menecerlər üçün idarəetmə qərarlarının qəbulunda baza yaratmaq
- Vergi və digər dövlət tələblərinin yerinə yetirilməsi üçün əsas məlumat təmin etmək
- Müəssisənin strateji inkişaf planlarının hazırlanmasına informasiya dəstəyi vermək

Mühasibat uçotu yalnız qeydiyyat prosesi deyil, həm də informasiya sistemidir. Bu sistem mühasiblər tərəfindən daxil edilən məlumatların emalı, təhlili və istifadəçilərə təqdim olunmasını təmin edir. İnformasiya sisteminin keyfiyyəti müəssisənin ümumi idarəetmə keyfiyyətinə bilavasitə təsir edir.

Müasir dövrdə mühasibat uçotu rəqəmsallaşma istiqamətində geniş inkişaf etmişdir. ERP sistemləri, elektron sənəd dövriyyəsi, avtomatlaşdırılmış uçot proqramları uçotun sürətini və etibarlılığını artırmışdır.

Mühasibat uçotunun əsas xüsusiyyətləri

- Davamlılıq: Uçot prosesi fasiləsiz aparılmalıdır.
- Tamlıq: Bütün əməliyyatlar sənədləşdirilməli və uçota alınmalıdır.
- Obyektivlik: Məlumatlar real vəziyyəti əks etdirməlidir.
- Müqayisəlilik: Eyni qaydalarla aparılan uçot müxtəlif dövrlərin nəticələrini müqayisə etməyə imkan verir.
- Dəqiqlik: Hesablamalar səhvsiz və düzgün aparılmalıdır.
- Şəffaflıq: Uçot məlumatları anlaşılan və yoxlana bilən olmalıdır.

Mühasibat uçotu təşkilatın fəaliyyətinin hər bir mərhələsində mühüm rol oynayır. Onun əhəmiyyəti aşağıdakılarda özünü göstərir:

- Müəssisənin iqtisadi vəziyyətinin real qiymətləndirilməsində
- Risklərin müəyyən edilməsində
- Xərclərin optimallaşdırılmasında
- İnvestisiya qərarlarının əsaslandırılmasında
- Dövlət nəzarətinin təmin edilməsində

Bu səbəbdən mühasibat uçotu istənilən təşkilatın dayanıqlı inkişafının əsas şərtlərindən biridir.

Mühasibat uçotu iqtisadiyyatın və biznes fəaliyyətinin ayrılmaz tərkib hissəsi olmaqla, müəssisənin təsərrüfat-maliyyə proseslərini əks etdirən əsas informasiya

mənbəyi kimi çıxış edir. Müasir iqtisadi münasibətlər sistemində heç bir təşkilat, müəssisə və ya kommersiya qurumu mühasibat uçotu olmadan fəaliyyət göstərə bilməz. Çünki mühasibat uçotu müəssisənin maliyyə vəziyyətini, fəaliyyət nəticələrini və iqtisadi potensialını obyektiv şəkildə əks etdirən yeganə sistemli mexanizmdir.

Mühasibat uçotu — müəssisənin təsərrüfat fəaliyyətini əks etdirən bütün əməliyyatların əvvəlcədən müəyyən edilmiş uçot prinsipləri və normativ qaydalar əsasında sənədləşdirilməsi, ölçülməsi, qeydiyyata alınması, sistemləşdirilməsi, qruplaşdırılması və yekun maliyyə hesabatlarında ümumiləşdirilməsi prosesidir. Bu proses nəticəsində formalaşan uçot məlumatları müəssisənin maliyyə vəziyyəti, gəlirləri, xərcləri, mənfəəti və zərəri haqqında etibarlı və müqayisəolunan informasiya yaradır.

Elmi baxımdan mühasibat uçotu yalnız texniki qeydiyyat prosesi deyil, eyni zamanda iqtisadi informasiyanın formalaşdırılması, emalı və təhlili ilə məşğul olan kompleks elmi-praktiki sistemdir. Bu sistem müəssisə daxilində baş verən bütün iqtisadi hadisələri ardıcıl və fasiləsiz şəkildə izləməyə imkan verir və onların maliyyə nəticələrini ölçməyə şərait yaradır.

Mühasibat uçotu ümumi iqtisadi informasiya sisteminin əsas tərkib hissəsidir. İqtisadiyyatın makro və mikro səviyyələrində qəbul edilən qərarların əksəriyyəti bilavasitə mühasibat uçotu məlumatlarına əsaslanır. Müəssisə səviyyəsində bu məlumatlar idarəetmə qərarlarının qəbulunda, dövlət səviyyəsində isə statistik təhlil, vergi siyasəti və iqtisadi tənzimləmə məqsədləri üçün istifadə olunur.

Müəssisədə baş verən hər bir iqtisadi əməliyyat — xammalın və materialların alınması, istehsal prosesi, məhsulun satışı, xidmətlərin göstərilməsi, əməkhaqqının hesablanması və ödənilməsi, əsas vəsaitlərin əldə edilməsi və silinməsi — mühasibat uçotu vasitəsilə ölçülür və sənədləşdirilir. Bu baxımdan mühasibat uçotu müəssisənin "maliyyə yaddaşı", "daxili dili" və "iqtisadi pasportu" kimi səciyyələndirilir.

Müasir dövrdə mühasibat uçotu sürətlə rəqəmsallaşma istiqamətində inkişaf edir. Avtomatlaşdırılmış uçot proqramları, ERP sistemləri və elektron sənəd dövriyyəsi uçot proseslərini daha operativ və etibarlı etmişdir. Bu isə mühasibat uçotunun analitik imkanlarını genişləndirmiş, onun strateji əhəmiyyətini daha da artırmışdır.

Beləliklə, mühasibat uçotu müəssisənin iqtisadi fəaliyyətini əks etdirən, idarəetmə və qərar qəbuletmə proseslərinin əsasını təşkil edən kompleks informasiya və idarəetmə sistemidir. Onun düzgün təşkili müəssisənin dayanıqlı inkişafının, maliyyə sabitliyinin və rəqabət qabiliyyətinin əsas şərtlərindən biridir.

1.2. Mühasibat uçotunun funksiyaları

Müasir iqtisadiyyatın ayrılmaz tərkib hissəsi olan mühasibat uçotu istənilən təsərrüfat subyektinin səmərəli idarə olunmasında mühüm rol oynayır. İqtisadi fəaliyyətin mürəkkəbləşdiyi, bazar münasibətlərinin sürətlə inkişaf etdiyi və

rəqabət mühitinin gücləndiyi şəraitdə müəssisələrin düzgün və əsaslandırılmış qərarlar qəbul etməsi üçün dəqiq, operativ və etibarlı maliyyə informasiyasına ehtiyacı daha da artmışdır. Bu informasiyanın formalaşdırılması və idarəedici subyektlərə çatdırılması isə məhz mühasibat uçotunun funksiyaları vasitəsilə təmin olunur.

Mühasibat uçotu sadəcə əməliyyatların qeydiyyat və sənədləşdirmə vasitəsi olmaqla kifayətlənmir. O, eyni zamanda müəssisənin fəaliyyətinə dair ətraflı təhlil aparmaq, gələcək planları hazırlamaq, fəaliyyətin nəticələrini qiymətləndirmək və hüquqi hesabatlılıq öhdəliklərini yerinə yetirmək baxımından da əhəmiyyətli vasitədir.

Mühasibat uçotu müəssisənin idarə olunmasında strateji əhəmiyyətə malik olan informasiya sistemidir və bir sıra mühüm funksiyaları yerinə yetirir. Bu funksiyalar müəssisənin fəaliyyətinin planlaşdırılması, idarə edilməsi, nəzarəti və qiymətləndirilməsi üçün zəruri olan məlumatların formalaşdırılmasına xidmət edir. Hər bir funksiya uçot sisteminin strukturunda ayrılmaz yer tutur və uçot prosesinin bütövlüyünü təmin edir.

Aşağıda mühasibat uçotunun əsas funksiyaları geniş izah olunur:

1. İnformasiya funksiyası. İnformasiya funksiyası mühasibat uçotunun əsas və ən mühüm funksiyası hesab olunur. Çünki uçotun başlıca məqsədi müəssisənin təsərrüfat fəaliyyəti haqqında dəqiq, vaxtında və obyektiv məlumat təqdim etməkdir.

Bu funksiya çərçivəsində mühasibat uçotu:

- Aktivlər, öhdəliklər, kapital, gəlir və xərclər haqqında tam məlumat yaradır
- İstifadəçilərə (menecerlərə, investorlara, kreditorlara, dövlət qurumlarına və s.) qərarvermə üçün əsas informasiya verir
- Maliyyə hesabatlarının hazırlanması üçün faktiki məlumat bazası formalaşdırır

İnformasiya funksiyası olmadan müəssisənin fəaliyyətinə dair heç bir analitik və idarəetmə qərarı qəbul edilə bilməz.

2. Nəzarət funksiyası. Mühasibat uçotu müəssisənin maddi, əmək və maliyyə ehtiyatları üzərində nəzarətin həyata keçirilməsində əsas vasitələrdən biridir. Bu funksiya vasitəsilə nəzarət edilir:

- Aktivlərin qorunmasına
- Material ehtiyatlarının düzgün istifadəsinə
- Kassa və bank əməliyyatlarının qanunvericiliyə uyğunluğuna
- Maliyyə intizamına və təsərrüfat nizam-intizamına

Nəzarət funksiyası həmçinin müəssisənin daxili audit mexanizminin gücləndirilməsinə və risklərin azaldılmasına xidmət edir.

3. Tənzimləmə funksiyası. Mühasibat uçotu müəssisənin təsərrüfat əməliyyatlarının düzgün tənzimlənməsini təmin edir. Bu funksiya normativ sənədlər — qanunlar, mühasibat standartları, vergi məcəlləsi, maliyyə siyasəti sənədləri əsasında həyata keçirilir.

Tənzimləmə funksiyasının əsas istiqamətləri:

- Təsərrüfat əməliyyatlarının normativ tələblərə uyğun rəsmiləşdirilməsi
- Müəssisənin daxili maliyyə prosedurlarının tətbiqi
- Uçot siyasətinin formalaşdırılması və icrası
- Maliyyə hesabatlarının standardlara uyğun hazırlanması

Bu funksiya olmadan uçot sisteminin vahidlik və müqayisəlilik prinsipləri pozular.

4. Təhlil funksiyası. Mühasibat uçotu yalnız məlumat toplayan mexanizm deyil, həm də analitik qiymətləndirmə üçün əsas mənbədir. Təhlil funksiyası vasitəsilə müəssisənin maliyyə nəticələri araşdırılır və iqtisadi qərarların qəbuluna əsas yaradılır.

Təhlil funksiyası çərçivəsində həyata keçirilir:

- Maliyyə göstəricilərinin dinamik təhlili
- Gəlirlilik, likvidlik və maliyyə sabitliyi göstəricilərinin hesablanması
- Xərclərin struktur təhlili
- Mənfəətliliyin artırılması üçün təkliflərin formalaşdırılması

Bu funksiya nəticəsində müəssisənin güclü və zəif tərəfləri müəyyən edilir.

5. Hesabat funksiyası. Mühasibat uçotunda toplanmış məlumatlar sonda maliyyə hesabatlarında ümumiləşdirilir. Hesabat funksiyası müəssisənin fəaliyyətini xarici və daxili istifadəçilərə təqdim etməyə imkan yaradır.

Bu funksiya çərçivəsində hazırlanan əsas hesabatlar:

- Maliyyə vəziyyəti haqqında hesabat (Balans)
- Mənfəət və zərər haqqında hesabat
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabat
- Kapitalda dəyişikliklər haqqında hesabat

Hesabatlar vasitəsilə müəssisənin nəticələri müxtəlif dövrlər üzrə müqayisə edilir və analitik qərarlar qəbul edilir.

6. Planlaşdırma funksiyası. Mühasibat uçotundan əldə edilən məlumatlar müəssisənin gələcək fəaliyyətinin planlaşdırılması üçün baza rolunu oynayır. Planlaşdırma funksiyası aşağıdakılara imkan verir:

- Büdcə və maliyyə proqnozlarının hazırlanması
- Xərclərin optimallaşdırılması
- Gəlirlərin artırılması istiqamətində strategiyaların qurulması
- İnvestisiya layihələrinin qiymətləndirilməsi

Bu funksiya müəssisənin strateji inkişafına bilavasitə təsir edir.

7. Müqayisə funksiyası. Mühasibat uçotu müxtəlif dövrlər və müəssisələr arasında maliyyə göstəricilərinin müqayisəsinə imkan yaradır. Bu funksiya standartların tətbiqi və eyni metodologiyanın istifadəsi nəticəsində təmin edilir.

Müqayisə funksiyası vasitəsilə:

- Müəssisənin əvvəlki dövrlə nəticələri müqayisə olunur
- Rəqib müəssisələrin göstəriciləri ilə müqayisə aparılır
- İstehsal və satış dinamikası qiymətləndirilir

Bu müqayisələr idarəetmə baxımından daha dəqiq qərarların qəbulunu təmin edir.

8. Proqnozlaşdırma funksiyası.Mühasibat məlumatları əsasında müəssisənin gələcək inkişaf istiqamətləri proqnozlaşdırılır. Bu funksiya xüsusilə uzunmüddətli investisiya planlarında mühüm rol oynayır.

Proqnozlaşdırma aşağıdakılara əsaslanır:

- Xərclərin və gəlirlərin trend analizi
- Likvidlik proqnozu
- Aktivlərin amortizasiya planı
- Risklərin qiymətləndirilməsi

Mühasibat uçotunun funksiyaları onun iqtisadi informasiya sistemində nə qədər əhəmiyyətli və çoxşaxəli rol oynadığını göstərir. Bu funksiyalar bir-biri ilə sıx bağlı olub, müəssisənin maliyyə idarəetməsinin bütövlüyünü təmin edir.

1.3. Mühasibat uçotunun təsnifatı

Müasir dövrdə mühasibat uçotu yalnız sadə qeydiyyat sistemi deyil, eyni zamanda idarəetmə, nəzarət, planlaşdırma və iqtisadi təhlil funksiyalarını da yerinə yetirən kompleks bir informasiya sistemidir. Mühasibat uçotunun müxtəlif istiqamətlərdə funksional əhəmiyyət kəsb etməsi onun təsnifləşdirilməsini**,** yəni fərqli məqsəd və vəzifələrə uyğun olaraq növlərə ayrılmasını zəruri edir. Bu təsnifat mühasibat uçotunun daha səmərəli və məqsədyönlü tətbiqinə şərait yaradır, istifadəçilərin tələbatına uyğun hesabatların formalaşdırılmasını asanlaşdırır.

Uçotun təsnifləşdirilməsi, onun məqsədinə, istifadəçilərin tələblərinə, tətbiq sahəsinə, məzmun və formalarına görə həyata keçirilir. Hər bir təsnifat növü mühasibat uçotunun müxtəlif aspektlərini əhatə edir və konkret iqtisadi məqsədlərə xidmət edir. Məsələn, maliyyə uçotu xarici istifadəçilər üçün şəffaflıq və hesabatlılıq funksiyasını daşıdığı halda, idarəetmə uçotu müəssisə rəhbərliyinin qərarvermə proseslərini dəstəkləyir. Vergi uçotu isə dövlətin maliyyə nəzarəti funksiyalarını yerinə yetirmək üçün əsas vasitə rolunu oynayır.

Bundan əlavə, mühasibat uçotu forma və texnologiyasına görə də müxtəlif növlərə bölünür. Ənənəvi əl ilə aparılan uçot müasir dövrdə yerini elektron və avtomatlaşdırılmış uçot sistemlərinə verməkdədir ki, bu da sürət, dəqiqlik və çevikliyə imkan yaradır. Eyni zamanda uçot sistemləri əhatə dairəsinə**,** sintetik və analitik səviyyəsinə**,** məzmununa görə də fərqlənə bilər.

Mühasibat uçotunun düzgün təsnif edilməsi yalnız nəzəri baxımdan deyil, həm də praktiki baxımdan olduqca vacibdir. Bu, müəssisənin hüquqi və iqtisadi öhdəliklərinin müəyyənləşdirilməsi, düzgün qərarların qəbul edilməsi və informasiya axınının idarə olunması baxımından böyük əhəmiyyət kəsb edir. Mühasibat uçotunun təsnifatı, həmçinin uçot sisteminin strukturlaşdırılması, mütəxəssislərin fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi və resursların optimal bölüşdürülməsi üçün də mühüm əsas yaradır.

Mühasibat uçotu mürəkkəb və çoxşaxəli bir sistem olduğuna görə, müəssisənin fəaliyyətinin müxtəlif sahələrini əhatə edən bir neçə istiqamətə bölünür. Bu təsnifat uçot məlumatlarının istifadəçilərinə, informasiya tələblərinə, hüquqi normalara və

idarəetmə səviyyələrinə əsaslanır. Mühasibat uçotunun düzgün təsnif edilməsi onun tətbiqində aydınlıq yaradır və uçot prosesini daha sistemli şəkildə qurmağa imkan verir.

Ümumilikdə mühasibat uçotu aşağıdakı əsas növlərə bölünür:

1. Maliyyə uçotu (Financial Accounting)

Maliyyə uçotu — müəssisənin maliyyə fəaliyyətini xarici istifadəçilər üçün ümumiləşdirilmiş formada əks etdirən uçot növüdür. Burada məqsəd şəffaf və obyektiv maliyyə hesabatları tərtib edərək investorlara, kreditorlara, dövlət qurumlarına və digər maraqlı tərəflərə məlumat təqdim etməkdir.

Maliyyə uçotunun əsas xüsusiyyətləri:

- BMHS/IFRS standartlarına uyğun aparılır
- Maliyyə hesabatlarının hazırlanmasına yönəlmişdir
- Tarixi məlumatlara əsaslanır
- Beynəlxalq müqayisəliliyi təmin edir
- Xarici istifadəçilər üçün informasiya yaradır

Bu növ uçot müəssisənin nə qədər gəlir əldə etdiyini, hansı aktivlərə malik olduğunu, hansı borclarının olduğunu və ümumi maliyyə sabitliyini göstərir.

2. İdarəetmə uçotu (Management Accounting)

İdarəetmə uçotu müəssisənin daxili idarəetmə ehtiyaclarına xidmət edən uçot sistemidir. Onun əsas məqsədi menecerləri planlaşdırma, nəzarət, analitik təhlil və qərarvermə prosesləri üçün zəruri olan informasiya ilə təmin etməkdir.

İdarəetmə uçotunun əsas xüsusiyyətləri:

- Daxili istifadəçilərə (menecerlərə) yönəlib
- Gələcək proqnozlar, büdcələr, xərclərin təhlili ilə bağlıdır
- Standartlarla məhdudlaşmır, müəssisənin öz siyasəti ilə müəyyən edilir
- Operativ və detallı məlumat təqdim edir
- Xərclərin kalkulyasiyası, istehsal proseslərinin səmərəliliyi və rentabellik təhlilini əhatə edir

İdarəetmə uçotu müəssisənin strateji və operativ idarəetməsində əsas alət kimi çıxış edir.

3. Vergi uçotu (Tax Accounting)

Vergi uçotu dövlət tərəfindən müəyyən edilmiş vergi qanunvericiliyinə uyğun olaraq aparılan uçot növüdür. Onun məqsədi müəssisənin vergitutma obyektini düzgün müəyyən etmək, vergiləri hesablamaq və vaxtında ödəməkdir.

Vergi uçotunun xüsusiyyətləri:

- Tamamilə dövlət vergi qanunvericiliyinə əsaslanır
- Vergilərin düzgün hesablanmasını təmin edir
- Vergi qeydiyyatı üçün xüsusi sənədlər və formalar tələb edir
- Maliyyə uçotu ilə müəyyən oxşarlıqları olsa da, metodologiyası fərqlidir

Vergi uçotu yalnız dövlət orqanlarının tələblərini ödəmək məqsədilə aparılır.

4. Operativ uçot

Operativ uçot müəssisənin gündəlik fəaliyyətini yerində və dərhal izləmək məqsədi daşıyır. Bu uçot ən operativ informasiyanı təqdim edir və adətən istehsal

prosesində, anbar təsərrüfatında, satış sistemində istifadə olunur.

Operativ uçotun xüsusiyyətləri:

- Real vaxtda məlumat verir
- Qeydlər çox vaxt şifahi və ya elektron formada aparılır
- Tez-tez sertifikatlaşdırılmır və formal sənədləşmə tələb olunmur
- İdarəetmə qərarlarının operativliyini artırır

Bu uçot növü, xüsusilə böyük istehsal müəssisələrində biznes proseslərinin fasiləsiz idarə olunması üçün mühümdür.

5. Statistika uçotu

Statistika uçotu müəssisənin fəaliyyətinə dair kəmiyyət göstəricilərinin toplanması, emalı və təhlili ilə məşğul olur. Bu uçot növü iqtisadi-təsərrüfat proseslərinin dinamikasını və meyllərini daha geniş miqyasda qiymətləndirməyə imkan verir.

Xüsusiyyətləri:

- Statistik metodlarla məlumatların ümumiləşdirilməsi
- Orta göstəricilərin, indekslərin, dinamika sıralarının hesablanması
- İqtisadi tədqiqatlarda istifadə edilməsi
- Dövlət statistika orqanlarına hesabat təqdim olunması

Statistika uçotu həm mikro, həm makro səviyyədə iqtisadi prosesləri izah edir.

6. Daxili audit və nəzarət uçotu

Bu uçot növü müəssisə daxilində fəaliyyətlərin düzgünlüyünü qiymətləndirmək və riskləri müəyyənləşdirmək üçün aparılır. Daxili audit uçotu sisteminin səmərəliliyini yoxlayır və inkişaf etdirilməsi üçün tövsiyələr verir.

Xüsusiyyətləri:

- Uçot sisteminin şəffaflığını qiymətləndirir
- Risklərin müəyyən edilməsinə kömək edir
- Normativ uyğunsuzluqların aşkarlanmasını təmin edir
- İdarəetmə qərarlarının effektivliyinə təsir göstərir

7. Sosial və ekoloji uçot

Müasir dövrdə müəssisələr sosial məsuliyyət və ekoloji davamlılıq sahəsində də hesabatlılıq tələb edir. Bu uçot növü sosial və ekoloji fəaliyyətlərin ölçülməsi və hesabatlılığını təmin edir.

Əhatə edir:

- Karbon emissiyaları
- Resurslardan istifadə göstəriciləri
- Korporativ sosial məsuliyyət xərcləri
- Dayanıqlı inkişaf üzrə hesabatlar

Bu uçot sahəsi qlobal iqtisadiyyatda getdikcə daha böyük əhəmiyyət kəsb edir.

1.4. Azərbaycan və beynəlxalq mühasibat uçotunun inkişaf mərhələləri

Mühasibat uçotu istənilən iqtisadi sistemin əsas struktur elementlərindən biri olub, iqtisadi münasibətlərin şəffaflığını, nəzarətini və idarə edilməsini təmin edən mühüm bir mexanizmdir. Qədim dövrlərdən bu günə qədər mühasibat uçotu insan cəmiyyətinin iqtisadi həyatında mühüm rol oynamış, zaman-zaman iqtisadi müna-

sibətlərin inkişafı ilə bağlı olaraq təkmilləşmişdir.

Azərbaycan Respublikasında mühasibat uçotunun formalaşması və inkişafı prosesi, ölkənin ictimai-siyasi, iqtisadi və hüquqi sistemində baş verən dəyişikliklərlə sıx şəkildə bağlı olmuşdur. Sovet dövründə tətbiq olunan mərkəzləşdirilmiş planlı iqtisadiyyata əsaslanan mühasibat sistemi, müstəqillik dövründə bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq yenidən qurulmuşdur. Müstəqillik əldə edildikdən sonra beynəlxalq maliyyə sistemlərinə inteqrasiya zərurəti, mühasibat uçotunun da beynəlxalq standartlara uyğunlaşdırılmasını vacib etmişdir.

Beynəlxalq mühasibat uçotu isə qloballaşan dünyada müxtəlif ölkələrdə fəaliyyət göstərən müəssisələr arasında maliyyə informasiyasının müqayisəliliyini, şəffaflığını və etibarlılığını təmin etmək məqsədilə formalaşmışdır. Bu sahədə **Beynəlxalq Mühasibat Standartları (IAS) və Beynəlxalq Maliyyə Hesabatlarının Standartları (IFRS)** önəmli rol oynayır. Bu standartlar dünyanın əksər ölkələrində maliyyə hesabatlarının vahid əsasda hazırlanmasına şərait yaradır və investorlar üçün informasiyanın əlçatanlığını artırır.

Azərbaycan da bu prosesdən kənarda qalmamış, xüsusən 2004-cü ildən etibarən IFRS-lərin tətbiqinə keçid, ölkədə maliyyə hesabatlarının keyfiyyətinin yüksəldilməsi və beynəlxalq investorlar üçün cəlbedici mühitin yaradılması baxımından mühüm addım olmuşdur. Bu keçid təkcə texniki dəyişikliklərlə deyil, eyni zamanda mühasibat kadrlarının beynəlxalq standartlar üzrə tədrisi və peşəkar inkişafı ilə də müşayiət olunmuşdur.

Nəticə etibarilə, həm Azərbaycan, həm də beynəlxalq səviyyədə mühasibat uçotunun inkişaf mərhələlərinin öyrənilməsi, bu sahədə aparılan islahatların mahiyyətini dərk etmək və müasir çağırışlara uyğun düzgün qərarlar qəbul etmək baxımından mühüm əhəmiyyət daşıyır.

Mühasibat uçotunun inkişafı bəşər sivilizasiyasının iqtisadi və sosial tərəqqisi ilə bilavasitə bağlıdır. Sərvətlərin qorunması, istehsalın idarə olunması, ticarət əlaqələrinin genişlənməsi və dövlətin vergi sisteminin formalaşması uçotun yaranmasına və təkmilləşməsinə səbəb olmuşdur. Bu inkişaf həm dünya miqyasında, həm də Azərbaycan kontekstində mərhələli şəkildə baş vermişdir.

1. Qədim dövr (e.ə. IV–I minilliklər)

Mühasibat uçotunun ilkin formaları qədim Mesopotamiya, Misir və Çin sivilizasiyalarında meydana çıxmışdır. Bu dövrdə uçotun əsas məqsədi:

- Məhsul və ərzaq ehtiyatlarının qeydiyyatı
- Vergilərin hesablanması
- Xərclərin və gəlirin təyini
- Dövlət təsərrüfatının idarə olunması idi

Qədim Şumer və Babilistan şəhərlərində gil lövhələrdə aparılan uçot qeydləri bu sahənin dünyanın ən qədim sistemlərindən biri olduğunu təsdiqləyir.

2. Orta əsrlər (V–XV əsrlər)

Ticarətin genişlənməsi və bazar münasibətlərinin inkişafı uçotun daha sistemli formasına keçidə səbəb oldu. Bu dövrdə:

- Təklif-tələb mexanizmi formalaşdı

- Ticarət karvanları və dəniz ticarəti yayıldı
- İlk kommersiya təşkilatları yarandı

Ən mühüm nailiyyət kimi ikili yazılış sistemi XIII–XV əsrlərdə İtaliyada meydana çıxmış və 1494-cü ildə Luka Paçolinin "Hesablar haqqında traktat" əsərində təsvir edilmişdir. Bu hadisə müasir mühasibat uçotunun başlanğıcı hesab olunur.

3. Sənaye İnqilabı dövrü (XVIII–XIX əsrlər)

Sənaye İnqilabı müəssisələrin sayını və istehsal miqyasını artırdı. Bu isə daha dəqiq uçot sisteminə ehtiyacı gücləndirdi. Bu dövrdə:

- Amortizasiya anlayışı formalaşdı
- Kapital və borcların idarə olunması üçün yeni mexanizmlər yarandı
- Hesablar sisteminin strukturu inkişaf etdi
- Audit və maliyyə nəzarəti yaranmağa başladı

Bu mərhələ mühasibat uçotunun elmi əsaslara söykənən müstəqil sahəyə çevrilməsi ilə xarakterizə olunur.

4. XX əsr – Beynəlxalq standartlaşdırma dövrü

XX əsrin ortalarından başlayaraq qloballaşma prosesləri mühasibat uçotunun vahid standartlar əsasında qurulmasını zəruri etdi.

Bu dövrdə:

- 1973-cü ildə Beynəlxalq Mühasiblər Komitəsi (IASC) yaradıldı
- İlk beynəlxalq standartlar – IAS seriyası qəbul edildi
- 2001-ci ildə Komitə Beynəlxalq Hesabat Standartları Şurası (IASB) kimi yenidən təşkil olundu
- IFRS (BMHS) beynəlxalq miqyasda qəbul edilən əsas hesabat standartı səviyyəsinə yüksəldi

Hazırda 140-dan çox ölkə IFRS standartlarından istifadə edir.

5. XXI əsr – Rəqəmsal transformasiya dövrü

Müasir dövrdə mühasibat uçotu sürətlə rəqəmsal sistemlərə keçir:

- ERP proqramları (SAP, 1C, Oracle və s.)
- Elektron sənəd dövriyyəsi
- Süni intellektlə inteqrasiya
- Elektron audit
- Onlayn hesabatlılıq

Bu dövr mühasibat uçotunun yüksək texnoloji mərhələyə qədəm qoyması ilə xarakterizə olunur.

II. Azərbaycan mühasibat uçotunun inkişaf mərhələləri

Azərbaycanın mühasibat uçotu da uzunmüddətli tarixi inkişaf yolu keçmişdir. Bu inkişafı aşağıdakı mərhələlər üzrə təsnif etmək mümkündür:

1. Qədim və orta əsr dövrü

Azərbaycan ərazisində mühasibat uçotunun ilkin formaları qədim Albaniya və Atropatena dövlətlərində vergi və xərac sistemində özünü göstərmişdir. Ticarət karvanlarının, ipək yolunun və zərdüştilik məbədlərinin təsərrüfat idarəçiliyində uçot aparıldığı məlumdur.

Orta əsrlərdə:

- Şirvanşahlar dövləti
- Qarabağ xanlığı
- Şəki xanlığı
- Bakı liman-ticarət mərkəzləri

maddi sərvətlərin uçotunu aparmaq üçün xüsusi yazı sistemlərindən istifadə etmişlər.

2. XIX əsr – Rusiya İmperiyası dövrü

1828-ci ildən sonra ölkə iqtisadi sistemində rus mühasibat metodları tətbiq olunmağa başladı. Bu dövrdə:

- Neft sənayesinin inkişafı uçotun rəsmi şəkildə aparılmasına təkan verdi
- İlk mühasibat sənədləşməsi qaydaları tətbiq olundu
- Xarici şirkətlərin (Nobel, Rotşild və s.) daxil olması ilə yeni uçot mədəniyyəti formalaşdı

3. SSRİ dövrü (1920–1991)

Sovet dönəmində uçot tam mərkəzləşdirilmiş qaydada aparılırdı. Bu mərhələdə:

- Bütün müəssisələr üçün vahid hesablar planı müəyyən edilmişdi
- Uçot ciddi normativ aktlarla tənzimlənirdi
- Analitik uçot geniş tətbiq olunurdu
- Dövlət nəzarəti yüksək idi

Əsas məqsəd müəssisənin rentabelliyini yox, planın yerinə yetirilməsini təmin etmək idi.

4. Müstəqillik dövrü (1991–2000)

Azərbaycan müstəqillik əldə etdikdən sonra iqtisadiyyat bazar münasibətlərinə keçid etdi və bu, mühasibat uçotunun yeni prinsiplərlə qurulmasını tələb etdi.

Bu dövrdə:

- Milli mühasibat qanunvericiliyi formalaşmağa başladı
- İlk "Mühasibat uçotu haqqında" Qanun qəbul edildi
- Qərb modellərinə keçid istiqamətində addımlar atıldı

5. BMHS-ə keçid dövrü (2000-ci ildən sonra)

2004-cü ildə yeni "Mühasibat uçotu haqqında" Qanun qəbul edildi və bu qanunla:

- Mühasibat uçotu beynəlxalq standartlar əsasında aparılmağa başladı
- Böyük şirkətlər üçün BMHS tətbiqi məcburi edildi
- Kiçik və orta müəssisələr üçün sadələşdirilmiş uçot sistemi yaradıldı
- Maliyyə hesabatlarının şəffaflığı və müqayisəliliyi artırıldı

2008-ci ildən etibarən dövlət müəssisələrində də İPSAS (beynəlxalq dövlət sektoru standartları) tətbiqinə başlanıldı.

6. Rəqəmsal iqtisadiyyat dövrü (2015–hazırkı dövr)

Mühasibat uçotu Azərbaycanda da sürətlə rəqəmsallaşır. Hazırda:

- Elektron vergi sistemi (e-gov, e-bəyannamə)
- Onlayn kassa aparatı

- ERP proqramlarının geniş tətbiqi
- Elektron sənədləşmə
- Xidmətlərin rəqəmsal platformalara keçirilməsi uğurla həyata keçirilir.

Nəticə. Azərbaycan və dünya mühasibat uçotu oxşar inkişaf mərhələlərindən keçərək bu gün vahid beynəlxalq metodologiya üzərində formalaşmışdır. Bu inkişaf həm iqtisadiyyatın tələblərinə, həm də texnoloji yeniliklərə uyğun olaraq davam etməkdədir. Müasir mühasibat uçotu yüksək texnologiya və beynəlxalq standartların sintezindən ibarət olan dinamik bir sistemə çevrilmişdir.

TAPŞIRIQLAR

Tapşırıq 1. (Nəzəri izah)

"Mühasibat uçotu müəssisənin informasiya sistemi kimi" mövzusunu izah edin. Uçotun informasiya funksiyası idarəetmə prosesinə necə təsir edir?

Tapşırıq 2. (Təhlil)

Aşağıdakı ifadələrdən hansıları maliyyə uçotuna, hansıları idarəetmə uçotuna aid olduğunu müəyyən edin:

1. Gələcək dövrlər üçün istehsal xərclərinin büdcəsi
2. Balans hesabatı
3. Strateji qərarların qəbulunda istifadə olunan daxili məlumatlar
4. Mənfəət və zərər hesabatı
5. Xərclərin kalkulyasiyası
6. Xarici istifadəçilər üçün hazırlanan hesabatlar

Tapşırıq 3. (Uyğunlaşdırma)

Aşağıdakı funksiyaları uyğunlaşdırın:

Funksiya	Təsviri
a) Nəzarət	1. Maliyyə məlumatlarının ümumiləşdirilməsi
b) Planlaşdırma	2. Aktivlərin qorunması, intizama riayət
c) Hesabat	3. Büdcələrin hazırlanması
d) Təhlil	4. Gəlirlilik və likvidlik göstəricilərinin hesablanması

Tapşırıq 4. (Tətbiqi) Misal: Müəssisə sentyabr ayı ərzində aşağıdakı əməliyyatları həyata keçirmişdir:

- 10 000 manatlıq material alınıb.
- 5 000 manat əməkhaqqı ödənilib.
- Hazır məhsulun 8 000 manatlıq hissəsi satılıb.

Bu əməliyyatların mühasibat uçotu baxımından təsnifatını aparın:

- aktivlərə təsiri
- öhdəliklərə təsiri

- gəlir və xərclərə təsiri qeyd edin.

Tapşırıq 5. (Qısa esse)

"Mühasibat uçotunun inkişafına rəqəmsal texnologiyaların təsiri" mövzusunda 1 səhifəlik esse yazın.

Tapşırıq 6. (Tarixi təhlil)

Beynəlxalq uçotun inkişaf mərhələlərindən birini seçərək (məsələn, sənaye inqilabı dövrü) onun mühasibat uçotuna təsirini geniş təhlil edin.

Tapşırıq 7. (Azərbaycan təcrübəsi)

Azərbaycanın BMHS-ə keçid prosesi hansı mərhələlərdən ibarət olmuşdur? Əsas islahatları xronoloji ardıcıllıqla qeyd edin.

Tapşırıq 8. (Sxem qurmaq)

Mühasibat uçotunun əsas funksiyalarını sxem şəklində tərtib edin:

- informasiya
- nəzarət
- tənzimləmə
- təhlil
- hesabat
- planlaşdırma
- müqayisə
- proqnozlaşdırma

Tapşırıq 9. (Qarşılaşdırma)

Maliyyə uçotu və vergi uçotunun oxşar və fərqli cəhətlərini cədvəl formasında təqdim edin.

Tapşırıq 10. (Analitik düşünmə)

İkili yazılış sistemi mühasibat uçotunun hansı üstünlüklərini təmin edir? Ən az 6 üstünlük göstərin.

Tapşırıq 11. (Senzitivlik analizi)

